**2012-ci il aprelin 20-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və İtaliya Respublikasının Kənd Təsərrüfatı, Ərzaq və Meşəçilik Siyasəti Nazirliyi arasında Protokol"un təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2012-ci il aprelin 20-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və İtaliya Respublikasının Kənd Təsərrüfatı, Ərzaq və Meşəçilik Siyasəti Nazirliyi arasında Protokol" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi bu Fərmanın 1-ci hissəsində göstərilən Protokolun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həmin Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə İtaliya Respublikası tərəfini xəbərdar etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 19 iyun 2012-ci il
№ 663

**Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və İtaliya Respublikasının Kənd Təsərrüfatı, Ərzaq və Meşəçilik Siyasəti Nazirliyi arasında**

**P R O T O K O L**

Bundan sonra "Tərəflər" adlanacaq Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və İtaliya Respublikasının Kənd Təsərrüfatı, Ərzaq və Meşəçilik Siyasəti Nazirliyi,

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və İtaliya Respublikasının Kənd Təsərrüfatı, Ərzaq və Meşəçilik Siyasəti Nazirliyi arasında 2006-cı ilin 20 oktyabr tarixində Bakı şəhərində imzalanmış, bundan sonra "Anlaşma Memorandumu" adlanacaq kənd təsərrüfatı sahəsində əməkdaşlıq üzrə Anlaşma Memorandumunu xatırlayaraq,

Yuxarıda qeyd olunmuş Anlaşma Memorandumunun 1-ci maddəsində müəyyən olunmuş, hər iki tərəf üçün maraq kəsb edə biləcək xüsusi əməkdaşlıq sahələrini təkmilləşdirmək niyyətilə,

Aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**

Tərəflər tədqiqat institutları arasında aşağıdakılar üzrə əməkdaşlığı təşviq edir və dəstəkləyirlər:

- zeytun istehsalının kompleks inkişafı;
- heyvanların artırılması;
- kiçik və iri gövşəyən heyvanların genetikasının yaxşılaşdırılması üzrə icra proqramları.

**Maddə 2**

Tərəflər kəndin inkişafının aşağıdakı müvafiq sahələri üzrə birgə layihələr işləyib hazırlayırlar:

- kəndin inkişafı və kənd ərazilərində kənd turizmini xüsusi vurğulamaqla mexanizasiya və kənd təsərrüfatı fəaliyyətlərinin diversifikasiyası;
- qabaqcıl təcrübələrin yayılmasının asanlaşdırılması.

**Maddə 3**

Tərəflər aşağıdakılar vasitəsilə kənd təsərrüfatı və ərzaq məhsullarının keyfiyyətini təşviq etmək məqsədilə mütəxəssis və qabaqcıl təcrübələri mübadilə edirlər:

- məhsulun qorunan mənşəyinin və coğrafi göstəricilərin inkişaf etdirilməsi üzrə yardım, tanınmış "keyfiyyətin sertifikatlaşdırılması sistemləri"nə dair məlumat və təcrübə mübadiləsi;
- Qorunan Coğrafi Göstəricilərin qeydiyyatı və qarşılıqlı tanınması üzrə təkliflərin verilməsi.

**Maddə 4**

Qənaətbəxş səviyyədə əməkdaşlığa nail olmaq üçün Tərəflər həm dövlət, həm də özəl sektordan olan müvafiq milli assosiasiyaları, təşkilatları və elmi qurumları cəlb edirlər.

**Maddə 5**

Tərəflər qarşılıqlı şəkildə kənd təsərrüfatı sahəsində FAO, Beynəlxalq Üzümçülük və Şərabçılıq Təşkilatı (BÜŞT), Beynəlxalq Zeytun Şurası (BZŞ), Heyvanların Qeydiyyatı üzrə Beynəlxalq Komitə (HQBK) kimi müvafiq beynəlxalq təşkilatlarda əməkdaşlığı genişləndirir və müvafiq olaraq çoxtərəfli müqavilələrə qoşulmanı dəstəkləyirlər.

Tərəflər, həmçinin, Avropa İttifaqının proqramları (TAİEX) və inzibati əməkdaşlıq alətləri (TVİNNİNQ) çərçivəsində texniki yardım üzrə birgə tələblər təqdim etmək üçün səy göstərirlər.

**Maddə 6**

Bu Protokol imzalandığı tarixdən qüvvəyə minir və Anlaşma Memorandumunun ayrılmaz tərkib hissəsi olacaqdır.

Bu Protokol Bakı şəhərində 2012-ci il 20 aprel tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, italyan və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Protokolun təfsirində fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

**Azərbaycan Respublikasının**
**Kənd Təsərrüfatı Nazirliyi**

**İtaliya Respublikasının**
**Kənd Təsərrüfatı, Ərzaq və**
**Meşəçilik Siyasəti Nazirliyi**